# VERGİ VƏ HÜQUQA AİD YENİLİKLƏR

Yanvar 2011



### YENİ VERGİ PROTOKOLLARI

2010-cu ilin dekabr ayı ərzində aşağıdakı vergi protokolları təsdiqlənərək Vergilər Nazirliyinin saytında yerləşdirilmişdir:

1. Xəzər Dənizinin Azərbaycan Sektorunda Abşeron Dəniz Yatağı Blokunun Kəşfiyyatı, İşlənməsi və Hasilatın Pay Bölgüsü Haqqında Sazişin İdxal və İxrac Rüsumları və Vergiləri Haqqında Protokol;

2. Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor Neft yataqlarının Daxil Olduğu Blokun Bərpası, İşlənməsi və Hasilatın Pay Bölgüsü haqqında Sazişin Əməkdaşların və Fiziki Şəxslərin Vergiyə Cəlb Edilməsi haqqında Protokol;

3. Azərbaycan Respublikasında Zığ və Hövsan Neft Yataqlarının Daxil Olduğu Blokun Bərpası, İşlənməsi və Hasilatın Pay Bölgüsü haqqında Sazişin İdxal və İxrac Rüsumları və Vergiləri haqqında Protokol;

4. Xəzər Dənizinin Azərbaycan sektorunda İnam perspektiv yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin Xarici Subpodratçıların Vergiyə Cəlb Olunması Haqqında Protokol.

### VERGİ ORQANLARI TƏRƏFİNDƏN GÖSTƏRİLƏN XİDMƏTLƏRİN İNKİŞAFI KONSEPSİYASI

6 yanvar 2011-ci il tarixli əmri ilə Azərbaycan Respublikasının Vergilər Naziri "vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası"nı təsdiq etmişdir. Konsepsiya vergi ödəyicilərini vergiləri müntəzəm və vaxtında ödəməyə həvəsləndirməyi, vergi ödəyicilərinin "online" rejimdə qeydiyyatının başlanmasını, vergi ödəyicisinin fəaliyyəti ilə bağlı fəaliyyət növünün dəyişdirilməsi və fəaliyyətin dayandırılması barədə elektron ərizənin verilməsini, e-ödənişlərin tətbiqini, vergi bəyannamələrinin tərtibatının sadələşdirilməsini, vergi hesabatlarının başqa proqram təminatı olmadan "online" rejimdə hazırlanmasını və s. nəzərdə tutur.

### ƏLAVƏ DƏYƏR VERGİSİNDƏN MÜVƏQQƏTİ AZADOLMA

Nazirlər Kabinetinin 3 dekabr 2010-cu il tarixli qərarına əsasən, idxal edilən buğda, meslin, buğda unu və buğda-çovdar unu 1 avqust 2011-ci il tarixə qədər ƏDV-dən azaddır.

**Həsən Haqverdiyev**
**İdarəedici Partnyor**
**E-mail: hasan.hagverdiyev@nexia.az**

**Euro Audit MMC – "Nexia International"a üzv şirkət**
**World Business Centre 9-cu mərtəbə, S. Rəhimov və S. Vurğun küçələrinin kəsişməsi, Bakı AZ1014, Azəbaycan**
**Tel: +994 12 597 30 44 | www.nexia.az**



# VERGİ VƏ HÜQUQA AİD YENİLİKLƏR

## Yanvar 2011

### 2011-Cİ İLDƏ NOVRUZ, RAMAZAN VƏ QURBAN BAYRAMLARI

Nazirlər Kabinetinin 3 dekabr 2010-cu il tarixli qərarına əsasən, 2011-ci ildə bayramlar aşağıdakı kimi müəyyən edilir:

Novruz bayramı – 20 - 24 mart;

Ramazan bayramı – 30, 31 avqust;

Qurban bayramı – 6, 7 noyabr.

**Həsən Haqverdiyev**
**İdarəedici Partnyor**
**E-mail: hasan.hagverdiyev@nexia.az**

**Euro Audit MMC – "Nexia International"a üzv şirkət**
**World Business Centre 9-cu mərtəbə, S. Rəhimov və S. Vurğun küçələrinin kəsişməsi, Bakı AZ1014, Azəbaycan**
**Tel: +994 12 597 30 44 | www.nexia.az**